# OXÇUÇAYDA APARILAN BİOLOJİ MONİTORİNQİN İLKİN NƏTİCƏLƏRİ

**Əlǝddin Eyvazov, Sara Əliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu, eliyeva.sara1981@gmail.com*

Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu ərazisindən axan Oxçuçay Ermənistan ərazisində çirklənməyə məruz qalmış tranzit çaylardan biridir. Başlanğıcını Zəngəzur silsiləsinin Qapıcıq dağından götürən çayın ümumi uzunluğu 85 km olub, onun 43 km-i Azərbaycan ərazisindən keçərək Araz çayına tökülür.

Ədəbiyyat məlumatlarına əsasən (Мамедова С.А., Насиров А.М., 1975), Bəsitçay və Oxçuçay çaylarında 13 növ balığın: Qafqaz enlibaşı (*Leuciscus cephalus orientalis*), Kür altıağzı (*Chondrostoma cyri*), Araz xramulyası (*Capoeta sevangi*), Kür şirbiti (*Luciobarbus cyri*), zərdəpər (*L.capito)*, mursa (*L.mursa)*, Qafqaz gümüşcəsi (*Alburnus hohenackeri*), Kür gümüşcəsi *(A.filippi)*, şərq qıjovçusu (*A. (bipunctatus) eichwaldi*), Kür çılpaqçası (*Barbatula brandti*), adi ilişgən (*Cobitis taenia satunini*), qızılı ilişgən (*Sabanejewia aurata*), qaraqaş (*Acanthobrama microlepis*) yayıldığı qeyd edilmişdir. Bu növlər arasında Araz xramulyası, Qafqaz gümüşcəsi və Şərq qıjovçusu çoxsaylı olmuşdur.

II Qarabağ müharibəsindən sonra həmin ərazilərdə ixtiofaunanın müasir vəziyyətinin öyrənilməsi aktuallaşmışdır.

İlkin olaraq, bioloji monitorinq Oxçuçayın Azərbaycan ərazisindəki yatağında əvvəlcədən seçilmiş stasionar müşahidə nöqtələrində yaz (may) və yay (avqust) fəsillərində ixtioloji tədqiqatlarda ümumi qəbul olunmuş metodlar əsasında həyata keçirilmişdir (Правдин И.Ф., 1966). Monitorinq zamanı Oxçuçay bol sulu olub, vizual olaraq bulanıq qiymətləndirilmişdir. Hər iki fəsildə çayın Azərbaycan ərazisindəki yuxarı axınında balıqlara rast gəlinməmişdir. İti axan çayların öz-özünü bərpa xüsusiyyətlərinə görə çayın aşağı axınında cəmi üç növ balıq: Kür şirbiti (*Luciobarbus cyri*), Şərq qıjovçusu (*Alburnoides (bipunctatus) eichwaldi*) və Qafqaz gümüşcəsi (*Alburnus hohenackeri*) qeydə alınmışdır. Bu balıqlardan Şərq qıjovçusu balığı çoxsaylı olmuşdur. Qıjovçu iti axan, dibi daşlı-çınqıllı çaylarda geniş yayılmış şirin su balığıdır. O, vətəgə əhəmiyyətli balıq olmasa da, digər balıqların qidasını təşkil edir.

Hazırda Oxçuçay bölgəsində çalışan insanlarla aparılan söhbətlər zamanı çayda dəfələrlə kütləvi balıq ölümü və ətrafda ciddi üfunətin əmələ gəlməsinə səbəb olan hadisələrin baş verdiyi qeyd edilmişdir.